UOT 339.13

Fariz Vidadi oğlu SÜLEYMANOV
Azərbaycan Dövlət Aqrar Universiteti, baş müəllim
e-poçt: farizsuleymanov649@gmail.com
https://doi.org/10.30546/4.71.73001.2025.003.046

KƏND TƏSƏRRÜFATI İSTEHLAK MƏHSULLARI BAZARININ İNKİŞAFINA, RƏQABƏTQABİLİYYƏTLİ İSTEHSALA TƏSİR EDƏN AMİLLƏRİN MÜƏYYƏN EDİLMƏSİ

Xülasə

Tədqiqatın məqsədi kənd təsərrüfatı istehlak məhsulları bazarının inkişafı və rəqabətqabiliyyətli istehsalın stimullaşdırılması məsələlərini kompleks şəkildə təhlil etməkdir. Sahənin milli iqtisadiyyat və ərzaq təhlükəsizliyi baxımından strateji əhəmiyyətini ön plana çəkmək, bazarın səmərəli fəaliyyətinin yalnız istehsalla deyil, həm də məhsulların bazara çıxarılması, satış infrastrukturu və qiymət siyasəti ilə sıx bağlı olduğunu əsaslandırmaqdır.

Tədqiqatın metodologiyası - tədqiqatın aparılması zamanı nəzəri mühakimə, sistemli yanaşma, ümumiləşdirmə, analiz və müqayisəli təhlil metodlarından bəhrələnilmişdir.

Tədqiqatın tətbiqi əhəmiyyəti – məqalədə kənd təsərrüfatı istehlak məhsulları bazarının davamlı inkişafı üçün hüquqi tənzimləmə, texnoloji modernizasiya və dövlət-istehsalçı-istehlakçı əməkdaşlığının gücləndirilməsinin əhəmiyyəti vurğulanmaqla praktiki əhəmiyyətə malik nəticələr əldə edilmiş və müvafiq təkliflər irəli sürülmüşdür. Bundan başqa, özünütəminetmə səviyyəsində son illərdəki statistik dəyişikliklərə əsaslanaraq daxili istehsalın inkişaf meyilləri və idxaldan asılılıq kimi aktual problemlər təhlil edilmişdir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi - kənd təsərrüfatı istehlak məhsulları bazarının inkişafına və rəqabətqabiliyyətli istehsala təsir edən amillər yeni strukturda və kompleks şəkildə tədqiq edilmiş, təsiredici amillər konkretləşdirilmişdir. Rəqabətqabiliyyətli istehsalın təşkilində qiymət siyasətinin rolu araşdırılmış və istehlak məhsulları bazarında rəqabətqabiliyyətli yerli məhsul istehsalının xüsusi çəkisinin yüksəldilməsi üzrə müəyyən məsələlərə aydınlıq gətirilmişdir.

Açar sözlər: kənd təsərrüfatı məhsulları, istehlak bazarı, rəqabətqabiliyyətlilik, ərzaq təhlükəsizliyi, dövlət siyasəti, özünütəminetmə səviyyəsi, qiymət siyasəti, idxaldan asılılıq.

Giriş

Müasir dövrdə kənd təsərrüfatı sektoru milli iqtisadiyyatın mühüm sahələrindən biri olmaqla, əhalinin ərzaqla təminatında və ərzaq təhlükəsizliyinin təmin edilməsində vacib rol oynayır. Bu sahənin məhsullarının səmərəli şəkildə bazara çıxarılması, istehlakçılara əlçatan formada çatdırılması və qiymət tarazlığının qorunması iqtisadi inkişafın davamlılığı üçün strateji əhəmiyyətə malikdir. Əhalinin sayının artması, urbanizasiya proseslərinin sürətlənməsi, geosiyasi rəqabətin güclənməsi və ən əsası qlobal iqlim dəyişiklikləri fonunda kənd təsərrüfatı məhsullarının davamlı istehsalı və keyfiyyətli şəkildə bazara çıxarılması daha da aktuallaşır.

Kənd təsərrüfatı istehlak məhsulları bazarının səmərəli fəaliyyət göstərməsi yalnız məhsul istehsalı ilə deyil, həm də bu məhsulların rəqabətqabiliyyətliliyinin artırılması, satış infrastrukturunun təkmilləşdirilməsi, daxili və xarici bazarlara çıxış imkanlarının genişləndirilməsi ilə bilavasitə əlaqəlidir. Bu kontekstdə dövlətin tənzimləyici funksiyası, institusional dəstək mexanizmləri, texnologiyaların tətbiqi, aqrar sahəyə investisiyaların cəlbi və fermerlərin maarifləndirilməsi kimi amillər xüsusi əhəmiyyətə malikdir [5, s.96-99]. Bazar iştirakçılarının qarşılıqlı əlaqələrinin gücləndirilməsi, logistika imkanlarının artırılması, məhsulların saxlanması və emalı sahəsində müasir infrastrukturun yaradılması da kənd təsərrüfatı məhsullarının dəyər zəncirində səmərəliliyi artırmaqla onların rəqabət üstünlüyünü möhkəmləndirir. Üstəlik, istehlakçı tələbinin dəyişkənliyini və keyfiyyət standartlarını nəzərə alsaq, kənd təsərrüfatı məhsullarının istehsalında innovativ

və bazar yönümlü yanaşmaların tətbiqi vacibliyini də vurğulamaq lazımdır. Beləliklə, kənd təsərrüfatı istehlak məhsulları bazarının inkişafı və bu sahədə rəqabətqabiliyyətli istehsalın stimullaşdırılması milli iqtisadiyyatın güclənməsi, ərzaq təhlükəsizliyinin təmin edilməsi və regionların sosial-iqtisadi rifahının artırılması baxımından strateji əhəmiyyət kəsb edir [3, s.72-75].

Dövlət siyasətinin bazarın inkişafına təsiri

Kənd təsərrüfatı istehlak məhsulları bazarı ölkə əhalisinin günlük həyat fəaliyyətini davam edə bilməsi üçün fizioloji normalara uyğun zəruri məhsullara olan tələbatı ödəməklə yanaşı, onlar üçün həyati vacib bəzi iqtisadi məsələlərin həll edilməsində çoxcəhətli funksiyaları yerinə yetirir. Bu baxımdan, istehlak məhsulları bazarının inkişafına mənfi təsir edə biləcək hər bir amilin öyrənilməsinə diqqət edilməsi, üzləşilən məsələnin aradan qaldırılması baxımından olduqca vacibdir. Bu, hazırda istehlak bazarının inkişafı istiqamətində dövlətin həyata keçirdiyi siyasətin əsas istiqamətlərindən biri kimi də ayırd edilə bilinər. Burada ilk növbədə istehsalçı müəssisələrin istehsal fəaliyyətinə təsir edən amillərin ayırd edilməsi daha əhəmiyyətlidir. Çünki, istehlak məhsulları bazarının əmtəə strukturu buradakı kənd təsərrüfatı məhsul istehsalçılarının təsərrüfat fəaliyyətlərinin son nəticəsidir. Kənd təsərrüfatı istehlak məhsulları bazarının inkişafı bilavasitə dövlət siyasətinin effektivliyindən asılıdır. Dövlət bir tərəfdən istehsalçıların maddi-texniki təminatını gücləndirir, digər tərəfdən isə bazar münasibətlərinin şəffaf və balanslı inkişafını təşviq edir. Son illərdə Azərbaycanda həyata keçirilən "Kənddən Şəhərə" layihəsi, aqrar sığorta sisteminin tətbiqi, regionların sosial-iqtisadi inkişaf proqramları və yerli istehsalçıların ixrac imkanlarının genişləndirilməsi istiqamətində atılan addımlar bu siyasətin praktiki təzahürüdür. İstehlak bazarının inkişafı məqsədilə həyata keçirilən digər dövlət siyasəti əhali gəlirlərinin məhsul qiymətlərilə uzlaşdırılması məsələsidir. İstehlak məhsulları bazarı müxtəlif gəlirlik səviyyəsində olan əhali qruplarına uyğun məhsul ilə təminata şərait yaratmalıdır. İstehlak xərclərinin xüsusi çəkisində kənd təsərrüfatı istehlak məhsullarına çəkilən xərclərin yüksəkliyi istehlak qiymətləri ilə əhali gəlirləri arasındakı nisbətin qorunmasının zəruriliyini artırır. Belə ki, istehlak məhsulları bazarında ərzaq fiziki mövcudluğu vacib olduğu qədər onun istehlakçı gəlirlərinə uyğun məhsul əlyetənliliyi də vacibdir. Nəticə etibarı ilə, kənd təsərrüfatı istehlak məhsulları bazarının inkişafı, ölkə daxilində gerçəkləşən ticarət əməliyyatlarına, dövlət nəzarətinin hansı səviyyədə həyat keçirilməsindən bilavasitə asılıdır. Burada dövlət nəzarətinin, tənzimlənməsinin əsas hərəkətverici istiqamətləri kimi, yerli sahibkarlıq subyektlərinin, istehsalçıların dəstəklənməsi əsas götürülməklə, yerli bazarın əlverişli şərtlər daxilində himayə olunmasına, sağlam rəqabət mühitinin yaradılmasına və onun dəvamlılığına nail olunmasına əlverişli imkan yaradılır [4, s.48-52].

Rəqabətqabiliyyətliliyin artırılması və qiymət siyasəti də kənd təsərrüfatı istehlak məhsulları bazarının inkişafında istiqamətverici amillərdəndir. Ümumiyyətlə, rəqabət mühitinin formalaşdırılması və möhkəmləndirilməsi kənd təsərrüfatı məhsullarının keyfiyyətinin və əlçatanlığının artırılmasına xidmət edir. Qiymət siyasəti burada əsas tənzimləyici amil olaraq çıxış edir. Dövlət, qiymətlərin inflyasiya fonunda alıcılıq qabiliyyətinə uyğun tənzimlənməsinə çalışmaqla, bazarda həm istehsalçının, həm də istehlakçının maraqlarını qoruyur. İnnovativ istehsal metodları, məhsulun maya dəyərinin azaldılması, yaşıl texnologiyaların tətbiqi və qeyri-qiymət metodları ilə rəqabətin təşviqi bu istiqamətdə effektiv vasitələrdir. İstehlak məhsulları bazarında rəqabətqabiliyyətli yerli məhsul istehsalının xüsusi çəkisinin yüksəldilməsi üçün aşağıdakı təsiredici amilləri göstərmək olar:

- milli iqtisadiyyatda kənd təsərrüfatının müasir inkişaf meyilləri;
- bazarın özünütəminetmə səviyyəsi;
- əsas növ kənd təsərrüfatı məhsullarının idxal-ixracının strukturu;
- kənd təsərrüfatı məhsul istehsalçıları üzrə maliyyə-kredit siyasəti;
- kənd təsərrüfatı məhsul istehsalçıları üzrə vergi, gömrük siyasəti;
- kənd təsərrüfatı məhsul istehsalçılarına birbaşa, dolayı dövlət dəstəyinin səviyyəsi;
- bazarda məhsul reallaşdırılması mərhələsində iştirak edən yerli sahibkarların və vasitəçilərin say nisbəti;

- istehlakçıların gəlirlilik səviyyəsi [6, s.2-5].

İstehlak bazarında əsas problemlərdən biri hələ də müəyyən məhsullar üzrə idxaldan asılılığın qalmasıdır. Bazarın bu növündə idxaldan asılılığın azaldılması və özünütəminetmə səviyyəsinin yüksəldilməsi ölkə üçün nəinki sosial-iqtisadi, həm də strateji baxımdan vacib məsələlərdəndir. Bu isə yerli istehsalın dəstəklənməsi, texnologiyaların modernləşdirilməsi və məhsuldarlığın artırılması ilə həll oluna bilər. Bu sahədə dövlətin subsidiya siyasəti, texnika və gübrə təminatında güzəştlər, eləcə də aqrotexniki xidmətlərin inkişafı müsbət nəticələr verir [8].

Cədvəl 1.

Əsas növ kənd təsərrüfatı məhsulları ilə özünütəminetmə səviyyəsi, faizlə

Məhsullar	İllər				
	2019	2020	2021	2022	2023
Dənlilər (çəltik istisna olmaqla)	67,3	68,1	73,7	69,0	70,5
Paxlalılar	76,1	60,3	56,4	61,5	62,8
Bütün növ tərəvəz	112,0	110,4	106,6	106,8	107,2
Kartof	87,8	90,6	88,8	89,0	89,8
Pomidor	132,5	131,0	121,1	119,8	118,9
Bostan məhsulları	100,8	100,8	102,6	103,2	103,2
Meyvə və giləmeyvə	123,1	116,3	122,9	123,9	135,5
Qoz və fındıq	138,2	138,0	136,5	137,0	139,7
Nar	110,7	112,0	127,8	125,9	132,8
Üzüm	94,3	95,8	94,4	94,8	93,9
Bütün növ ət və ət məhsulları	82,5	84,5	86,4	86,0	85,3
Süd və süd məhsulları	86,3	83,5	84,8	83,3	84,0
Yumurta	101,8	100,0	99,1	100,5	102,2
Balıq və balıq məhsulları	82,2	81,7	78,2	76,7	75,4

Mənbə: *AR DSK Azərbaycanın ərzaq balansı, 2024. səh. 75-76*


AR DSK-nın məlumatlarını tədqiq etdikdə məlum olur ki, son beş ildə ölkəmizdə özünütəminetmə səviyyəsi göstəriciləri kifayət qədər dinamikliyi ilə seçilir. Bir qrup məhsullar üzrə artımlarla yanaşı, nəzərəçarpacaq azalmalar da diqqəti cəlb edir. Belə ki, dənlilər (çəltik istisna olmaqla), bostan məhsulları, meyvə və giləmeyvə, nar, bütün növ ət və ət məhsulları üzrə özünütəminetmə səviyyəsi 2023-cü ildə 2019-cu ilə nisbətən 2,4-12,4 faiz bəndi arasında artmışdır. Həmçinin, kartof, qoz və fındıq və yumurta məhsulları üzrə də son 5 ildə özünütəminetmə səviyyəsində artım qeydə alınmışdır. Əsas növ kənd təsərrüfatı məhsullarında paxlalılar, bütün növ tərəvəz, pomidor, üzüm, süd və süd məhsulları, balıq və balıq məhsulları üzrə isə özünütəminetmə səviyyəsində 2023-cü ildə 2019-cu ilə nisbətən 0,4-13,6 faiz bəndi azalma müşahidə edilmişdir. Azalma tendensiyasına baxmayaraq bütün növ tərəvəz, xüsusi ilə pomidor məhsulunda özünütəminetmə səviyyəsi 100 faizdən çoxdur. Bu məhsullarla yanaşı bostan məhsulları, meyvə və giləmeyvə, o cümlədən qoz və fındıq, nar, həmçinin yumurta məhsullarında özünütəminetmə səviyyəsi 100 faizdən çoxdur.

Kənd təsərrüfatı məhsulları üzrə özünütəminetmə səviyyəsində müşahidə olunan dəyişikliklər, ölkənin ərzaq təhlükəsizliyi və daxili istehsal potensialı baxımından mühüm xəbərdarlıq verir. Bir sıra məhsullar üzrə özünütəminetmə səviyyəsində artım müşahidə olunması, ölkənin bu sahələrdə daxili tələbatını daha çox yerli istehsal hesabına ödəyə bildiyini göstərir. Bu, kənd təsərrüfatının məhsuldarlığının artması, subsidiyaların və dövlət dəstəyi mexanizmlərinin effektivliyi ilə izah oluna bilər. Eyni zamanda, kartof, qoz-fındıq və yumurta məhsullarında da artım tendensiyası davam edərək yerli istehsalın gücləndiyini və ixrac potensialının artdığını göstərir. Digər tərəfdən,

bəzi məhsullarda müvafiq göstərici üzrə qeydə alınan azalma ölkədə bu məhsulların ya istehsalında durğunluq, ya da tələbatın artması ilə yerli istehsalın ayaqlaşmaması kimi problemləri üzə çıxarır. Bu məhsullar üzrə idxaldan asılılığın artması ərzaq təhlükəsizliyinə müəyyən risklər yarada bilər. Bununla belə, pomidor və tərəvəz məhsulları üzrə özünütəminetmə səviyyəsinin 100 faizdən çox olması, faktiki olaraq ixrac imkanlarının mövcud olduğunu göstərir. Eyni hal qoz-fındıq, nar, meyvə və giləmeyvə, bostan məhsulları və yumurta üçün də keçərlidir. Bu isə ölkənin bəzi kənd təsərrüfatı sahələrində rəqabətqabiliyyətli ixrac yönümlü istehsal modelinə keçid etdiyini nümayiş etdirir. Ümumilikdə, apardığımız təhlillər göstərir ki, ölkədə bəzi əsas kənd təsərrüfatı məhsulları üzrə davamlı irəliləyiş müşahidə olunsa da, müəyyən strateji məhsullar üzrə azalan özünütəminetmə səviyyəsi daxili istehsalın modernləşdirilməsi və dayanıqlı inkişafı istiqamətində əlavə tədbirlərin görülməsini zəruri edir. Odur ki, kənd təsərrüfatı istehlak məhsulları bazarının inkişafında istehsal müəssisələrinin davamlılığı və texnoloji modernizasiya əhəmiyyətli rol oynamaqdadır. Rəqabətqabiliyyətli istehsal yalnız məhsulun ucuz başa gəlməsi ilə deyil, həm də onun keyfiyyətinin beynəlxalq standartlara uyğun olması ilə müəyyən edilir. Bu məqsədlə müasir texnoloji bazanın yaradılması, emal müəssisələrinin gücləndirilməsi və elmi-texniki yeniliklərin tətbiqi xüsusi əhəmiyyət kəsb edir. Eyni zamanda kiçik təsərrüfatların bazara çıxış imkanlarının genişləndirilməsi üçün dövlət tədarükü və satış dəstəyinin artırılması vacibdir. Bu sahənin hüquqi tənzimlənməsi də bazar münasibətlərinin inkişafına müsbət təsir göstərir. “Azərbaycan Respublikası Rəqabət Məcəlləsi” ilə tənzimlənən və istehlakçı hüquqlarının qorunmasına dair normativ aktlar, bazarda sağlam rəqabət mühitinin təmin olunmasında əsas amillərdəndir. Eyni zamanda ticarət əməliyyatları üzrə informasiya bazasının yaradılması və bazar statistikalarının ictimaiyyətə açıqlanması qanunvericiliyin səmərəliliyini artırır. Nəticə etibarilə, kənd təsərrüfatı istehlak məhsulları bazarının inkişafı dövlət siyasətinin hədəfyönlü və kompleks yanaşmasından birbaşa asılıdır. Yerli istehsalın stimullaşdırılması, texnoloji modernizasiya və hüquqi bazanın təkmilləşdirilməsi sahədə davamlı inkişaf üçün strateji əhəmiyyət daşıyır. Özünütəminetmə səviyyəsində müşahidə olunan pozitiv tendensiyalarla yanaşı, mövcud çatışmazlıqların da vaxtında və effektiv həlli tələb olunur. Bu isə yalnız dövlət, istehsalçı və istehlakçı arasında qarşılıqlı faydalı münasibətlərin qurulması və davam etdirilməsi ilə mümkündür.

Kənd təsərrüfatı istehlak məhsulları bazarının inkişafına yönəlik fəaliyyətlərin səmərəli və ya qeyri-səmərəli nəticələr verdiyini müəyyən etmək məqsədilə bazarın kənd təsərrüfatı məhsulları ilə təminatına, bu sahədə mövcud istehsalın vəziyyətinə nəzər etmək əhəmiyyətlidir. Bu məqsədlə DSK-nın məlumatlarına istinadən müəyyən göstəricilərin təhlil edilməsi zərurəti yaranır. Qrafik 1-də müvafiq illər üzrə ölkəmizdə həm ümumi, həm də heyvandarlıq, bitkiçilik sahəsində istehsal olunan məhsulların həcmi öz əksini tapmışdır. Qrafik məlumatlarından görülən odur ki, son beş ildə, hətta pandemiya dövründə belə kənd təsərrüfatının həm ümumi, həm də sahələr üzrə həcmində əhəmiyyətli artımlar baş vermişdir. Nəzərə alsaq ki, artan kənd təsərrüfatı məhsullarının mütləq hissəsi istehlak bazarında reallaşdırılır, onda artan istehsalın həm özünütəminetmə səviyyəsinin artırılması, həm də istehlak bazarının əmtəə strukutrunun, tutumunun yaxşılaşdırılması baxımından əhəmiyyətli olacağını deyə bilərik.


Qrafik üzrə göstəriciləri baza ili ilə qarşılaşdırdıqda hesabat ilində 2019-cu il ilə müqayisədə cəmi kənd təsərrüfatı məhsullarının istehsalının 55.8 % artdığını müəyyən etmiş oluruq. 2019-cu il ilə müqayisədə 2023-cü ildə bitkiçilik sahəsində istehsal edilmiş məhsulların həcmindəki artım 71,9%, heyvandarlıq sahəsindəki məhsul istehsalı üzrə yüksəlişin nisbi kəmiyyətlə ifadəsi 53,6 % səviyyəsində olmuşdur. Təhlildən aydın olur ki, dövlətin istehlak bazarının inkişafına onun əmtəə strukturunun yaxşılaşdırılması sahəsində siyasəti yerli istehsal vəziyyətinin yaxşılaşdırılması hesabına məhsul buraxılışının yüksəldilməsi ilə öz həllini tapmışdır. Bu hal həm bazarın təminat səviyyəsinin artması, həm də artan bazar tələbi fonunda bazar qiymətlərinin normallaşdırılması baxımından olduqca əhəmiyyətli fəaliyyət kimi qiymətləndirilə bilər.



Qrafik 1. Kənd təsərrüfatı məhsulunun ümumi və sahələr üzrə istehsal həcmi, min manat ilə


Mənbə: *https://www.stat.gov.az/source/agriculture/*

Kənd təssərüfatı məhsullarının ümumi və sahələr üzrə artımı müsbət hal kimi qiymətləndirilsə də, bu artımın yalnız istehsalın həcminin yüksəldilməsi hesabına baş vermədiyini və burada qiymət amilinin əhəmiyyətli rol oynadığını unutmaq olmaz. Bu məqsədlə istehlak bazarında son bir neçə il ərzində istehlak məhsulları üzrə qiymətlərin hansı istiqamətdə dəyişdiyinə aydınlıq gətirmək vacibdir. Qrafik 2-dən görülən odur ki, son on dörd il ərzində istehlak bazarında qiymətlər bir öncəki dövrlə müqayisədə ümumən artma meylində olmuşdur. Belə ki, 2009-cu ilə nisbətdə istehlak bazarında qiymətlər 2010-cu ildə 5.7 bənd, 2014-cü ilə nisbətdə 2015-ci ildə 4,0 bənd artmışdır. Artımın ən yüksək olduğu dövrlər 2021-2023-cü illərə təsadüf edir ki, eyni dövrlə müqayisə edildiyində, 2021-ci ilə nisbətdə 2022-ci ildə istehlak qiymətlərinin 13,9 bənd artdığını görürük [2]. Hesabat ilində bir öncəki ilə nisbətdə istehlak bazarında orta qiymətlər səviyyəsinin 8.8 bənd artdığını görürük ki, bu da daxili istehlak bazarında qiymətlər səviyyəsinin 2021-ci il ilə müqayisədə 2022-ci ildəki artım dinamikasına nisbətən aşağı olduğunu deməyə əsas verir. Təhlildən aydın olur ki, əslində yuxarıda da qeyd etdiyimiz üzrə kənd təsərrüfatının müvafiq illər üzrə həcmindəki artım həm istehsalın həcmi, həm də istehlak bazarında baş verən qiymət yüksəlişi ilə əlaqələndirilməlidir.



Qrafik 2. İstehlak məhsulları bazarında müvafiq illər üzrə qiymət indeksləri
Mənbə: *https://www.stat.gov.az/source/price_tarif/*

Xüsusilə son üç ildə, bir qədər konkretləşdirsək postpandemiya dövründə qiymətlərin istehlak bazarında öncəki illərlə müqayisədə əhəmiyyətli dərəcədə yüksəlməsi kənd təsərrüfatının ümumi məhsulunda nəzərəçarpacaq dərəcədə artımlara gətirib çıxarmışdır. Apardığımız tədqiqatdan həmçinin aydın olur ki, qısa müddət ərzində yerli istehsalın yüksəlməsi hesabına daxili bazarda özünütəminat imkanlarının genişlənməsi bazarda artan tələbin qarşılanmasına və qiymətlərin nisbətən stabilləşməsinə gətirib çıxarmışdır. Əks halda, qrafik 2-də qarşılaşdığımız vəziyyət daha kəskin ola bilərdi və daxili istehlak bazarında qiymətlərin əhəmiyyətli dərəcədə artması hesabına tarazlıq haldan kəskin kənarlaşma baş verərdi. Aparılan dövlət siyasətinin və bazarın tənzimlənilməsinə yönəlik fəaliyyətlərin səmərəliliyini və istehlak bazarında hansı istiqamətdə dəyişikliyə gətirib çıxardığını müəyyən etmək üçün qrafik 3-də istehlak bazarının vəziyyətinə və burada pərakəndə ticarətin müvafiq illər üzrə vəziyyətinə yer verilməsi məqsədəuyğun hesab edilmişdir.



Qrafik 3. İstehlak bazarı və pərakəndə ticarətin müvafiq illər üzrə vəziyyəti
Mənbə: *AR DSK Azərbaycanın ərzaq balansı, 2024. https://www.stat.gov.az/source/trade/*

Qrafik üzrə istehlak bazarının və buradakı pərakəndə ticarətin son beş ildəki vəziyyətinə nəzər yetirdiyimizdə vəziyyətin analoji olaraq hər ötən ilə nisbətdə bu və ya digər dərəcədə müsbətə

dəyişdiyini və artan xarakter daşıdığını demək mümkündür. Baza ili ilə müqayisədə 2023-cü ildə istehlak bazarında həyata keçirilən ticarət əməliyyatlarının həcminin 83,9 % yüksəldiyini deyə bilərik. Bu hal bir öncəki ilə, yəni 2022-ci il ilə hesabat ili arasında müqayisə edildiyində, istehlak bazarının 2023-cü ildə 14.9% böyüdüyünü müəyyən etmiş oluruq. Beləliklə, qrafik 3 üzrə təhlilin nəticəsi kimi deyə bilərik ki, kənd təsərrüfatı məhsullarının son illər üzrə istehsal həcminin artması və eyni illərdə istehlak bazarında qiymət indeksinin müəyyən dərəcədə yüksəlməsi, istehlak bazarında reallaşan ticarət əməliyyatlarının artması fonunda bazarın genişlənməsinə və onun əmtəə strukturunun yaxşılaşmasına səbəb olmuşdur.

Nəticə

Kənd təsərrüfatı istehlak məhsulları bazarının inkişafı və rəqabətqabiliyyətli istehsalın təşviqi Azərbaycan üçün həm sosial, həm də iqtisadi baxımdan həyati əhəmiyyət kəsb edir. Dövlət siyasətinin effektiv icrası, struktur islahatlarının davamlılığı, texnoloji modernizasiya və institusional dəstək bu sahənin davamlı inkişafına zəmin yaradır. Gələcəkdə daha yüksək nəticələrin əldə olunması üçün rəqabət mühitinin dərinləşdirilməsi, regional bazar inteqrasiyasının gücləndirilməsi və ixrac yönümlü istehsalın təşviqinə ehtiyac var. Kənd təsərrüfatı istehlak məhsulları bazarının inkişafı dövlət siyasətinin effektivliyindən, yerli istehsalın gücləndirilməsindən və bazar tənzimlənməsinin keyfiyyətindən birbaşa asılıdır. Ölkəmizdə bəzi məhsullar üzrə özünütəminetmə səviyyəsində artım olsa da, bir sıra strateji məhsullarda azalma meyilləri qalmaqdadır. Bu isə ərzaq təhlükəsizliyi və davamlı iqtisadi inkişaf baxımından əlavə tədbirlərin görülməsini zəruri edir.

İxracyönümlü sahələrin təşviqinin mühüm əhəmiyyət kəsb etdiyini nəzərə alaraq yerli istehsalçılara subsidiya, vergi-gömrük güzəştləri, texniki və innovativ dəstəyin artırılmasını məqsədəuyğun hesab edirik. Bazarda şəffaflığın təmin olunması, kiçik təsərrüfatların bazara çıxış imkanlarının genişləndirilməsi və informasiya təminatının gücləndirilməsi, maliyyə əlçatanlılığının sadələşdirilməsi də istehlak məhsulları bazarının inkişafına mühüm təkan verə bilər. Eləcə də, qiymət siyasəti əhali gəlirləri ilə uzlaşdırılmalı, sosial həssas təbəqələr üçün əlçatanlıq qorunmalıdır. Əlavə olaraq, məhsuldarlığı artırmaq məqsədilə elmi-texniki yeniliklərin tətbiqi genişləndirilməli və hüquqi-normativ baza gücləndirilməlidir. Bütün bu tədbirlər istehlak bazarında davamlı, rəqabətqabiliyyətli və ixracyönümlü kənd təsərrüfatı sisteminin formalaşmasına imkan verə bilər.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Rəqabət Məcəlləsi. (Bu Məcəllə Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1051-VIQ nömrəli qanunu ilə təsdiq edilmişdir).
2. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi (2024A), Azərbaycanın ərzaq balansları. Statistik məcmuə. AR DSK, Rəsmi nəşr. Bakı-2024. Səh.116
3. Abbasov V., Süleymanov F., Kənd təsərrüfatı məhsulları ilə özünütəminat səviyyəsi və bazarın inkişaf amilləri. *Kənd Təsərrüfatı İqtisadiyyatı,*elmi-praktiki jurnal. №2 (36), 2021. Səh.72-79
4. Cavadzadə X., Kənd təsərrüfatı məhsullarının satış bazarlarının inkişaf amilləri. *Kənd Təsərrüfatı İqtisadiyyatı,*elmi-praktiki jurnal. №2, 2024. Səh 48-56
5. Məhərrəmova S., Bazar münasibətləri şəraitində kənd təsərrüfatının maddi-texniki bazasının inkişaf mexanizmi. *Kənd Təsərrüfatı İqtisadiyyatı,*elmi-praktiki jurnal. №32, 2020. Səh. 96-106
6. Özdemir D., Reconsidering agricultural credits and agricultural production nexus from a global perspective. Food and Energy Security, 2023, 13(1), p.13. https://doi.org/10.1002/fes3.504
7. Kiss, A., & Balogh M., Agri-Food Trade Competitiveness: A Review of the Literature. Sustainability, 2021, 13(20), 11235. https://doi.org/10.3390/su132011235
8. Matkovski, B., Zekić, S., Đokić, D., Jurjević, Ž., & Đurić, I., Export Competitiveness of Agri-Food Sector during the EU Integration Process: Evidence from the Western Balkans. Foods, 2022, 11(1), p.10. https://doi.org/10.3390/

Фариз Видади оглы Сулейманов
Азербайджанский Государственный Аграрный Университет
старший преподаватель
farizsuleymanov649@gmail.com

Определение факторов, влияющих на развитие рынка сельскохозяйственной потребительской продукции и конкурентоспособного производства

Резюме

Целью исследования является комплексный анализ развития рынка потребительской сельскохозяйственной продукции и вопросов стимулирования конкурентоспособного производства. Подчеркнуть стратегическую значимость отрасли с точки зрения национальной экономики и продовольственной безопасности, обосновать, что эффективное функционирование рынка тесно связано не только с производством, но и с реализацией продукции, инфраструктурой сбыта и ценовой политикой.

Методология исследования – в ходе исследования использовались методы теоретического обоснования, системного подхода, обобщения, анализа и сравнительного анализа.

Практическая значимость исследования – в статье подчеркивается важность правового регулирования, технологической модернизации, укрепления государственно-производственно-потребительской кооперации для устойчивого развития рынка сельскохозяйственной потребительской продукции, достигаются результаты, имеющие практическое значение, и выдвигаются соответствующие предложения. Кроме того, на основе статистических данных об изменении уровня самообеспеченности за последние годы были проанализированы такие актуальные проблемы, как тенденции развития внутреннего производства и импортозависимость.

Оригинальность и научная новизна исследования - в новой структуре и комплексном плане изучены факторы, влияющие на развитие рынка сельскохозяйственной потребительской продукции и конкурентоспособного производства, конкретизированы факторы влияния. Рассмотрена роль ценовой политики в организации конкурентоспособного производства, выяснены некоторые вопросы увеличения доли конкурентоспособной отечественной продукции на рынке потребительских товаров.

Ключевые слова: Сельскохозяйственная продукция, потребительский рынок, конкурентоспособность, продовольственная безопасность, государственная политика, уровень самообеспеченности, ценовая политика, импортозависимость

Fariz Vidadi Suleymanov
Azerbaijan State Agrarian University, senior lecturer
farizsuleymanov649@gmail.com

Determination of factors affecting the development of the agricultural consumer products market and competitive production

Summary

The purpose of the study is to comprehensively analyze the issues of development of the agricultural consumer products market and stimulation of competitive production. To highlight the strategic importance of the sector in terms of national economy and food security, to substantiate that the efficient functioning of the market is closely related not only to production, but also to the marketing of products, sales infrastructure and pricing policy.

Research methodology - during the study, theoretical reasoning, systematic approach, generalization, analysis and comparative analysis methods were used.

Applied significance of the study - the article emphasizes the importance of legal regulation, technological modernization and strengthening of state-producer-consumer cooperation for the sustainable development of the agricultural consumer products market, and results of practical importance are obtained and relevant proposals are put forward. In addition, based on statistical changes in the level of self-sufficiency in recent years, topical problems such as development trends of domestic production and dependence on imports are analyzed.

The originality and scientific novelty of the research - the factors affecting the development of the agricultural consumer products market and competitive production have been studied in a new structure and in a complex manner, the influencing factors have been specified. The role of pricing policy in the organization of competitive production has been examined and certain issues have been clarified regarding increasing the specific weight of competitive local production in the consumer products market.

Key words: Agricultural products, consumer market, competitiveness, food security, state policy, self-sufficiency level, pricing policy, import dependence.